**Gülmarə Məmməd**

# ÇOX DA Kİ BALACAYAM

*uşaq şeirləri*

QANUN NƏŞRİYYATI

## Mündəricat

Şad gün ........................................................ 6
Yaz fəsli ........................................................ 7
Bu səhər ........................................................ 9
Gizlənpaç ........................................................ 10
Yuxu ........................................................ 12
Xeyirxahlar ........................................................ 14
Nə gözəldir təbiət ........................................................ 18
Öyrətmək nə gözəlmiş ........................................................ 19
Cəzanı arı verdi ........................................................ 20
Qış ........................................................ 21
Qorxmuram o küləkdən ........................................................ 22
Mənə nağıl söyləyin ........................................................ 24
Qumru ........................................................ 26
Ülkər ........................................................ 27
İstək ........................................................ 28
Yağışda ........................................................ 30
Maraq ........................................................ 31
İncimәz ........................................................ 32
Nə yaxşı tənbəl deyil ........................................................ 33
Nə xoş olar ........................................................ 35
Hədəf ........................................................ 36
Dağ xoşlayır ........................................................ 37
Söylədim ........................................................ 38
Küsməz daha ........................................................ 39

Çox da ki balacayam ........................................40
Cəsur ........................................41
Qoçağın arzusu ........................................42
Anladı özü ........................................44
Faydalı qərar ........................................45
Çalışqanam ........................................46
Bildim saatı ........................................47
Bu səfərlik ........................................48
Qayğı ........................................49
Nərgizin ........................................51
İki dəcəl ........................................53
Sevincin ........................................55
Sevinir Rəşid ........................................56
Balaca aşpaz ........................................57
Külək ........................................58
Qayğıkeş oğlan ........................................59
Balaca rəssam ........................................60
Gələcək usta ........................................61
Xəbər ........................................63
Yaxşı dost ........................................64
Rəssam istəyi ........................................65
Rəhimli oğlan ........................................66
Xilas ........................................67
Barış ........................................68
Dostlar ........................................70
Zəhmət ........................................72
Oyun ........................................74
Deyərsiz ........................................76
Bu yaz da ........................................77

Ağ xalatı geyincə .................................................. 78
Qərarım ........................................................... 80
Yetər ki ............................................................ 81
Qışın faydası ..................................................... 81
Sayıram ........................................................... 82
Hər kəs bilir ...................................................... 82
Mən də o gün ..................................................... 83
Tərs yağış ......................................................... 83
Sirr .................................................................. 84
Bu il də ............................................................ 84
Yaza hazırıq ...................................................... 85
Peşmanlıq ......................................................... 86
Göyərçin ........................................................... 87
Kəpənəklər ........................................................ 88
Dovşanla oyun ................................................... 90
Məstanım .......................................................... 91
Hörümçək ......................................................... 92
Oxşamalar ......................................................... 93

## ŞAD GÜN

Bilirsiniz, bu günlər
Yox sevincimin həddi.
Deyilməsin nə isə
Daha önümdə səddi.

Sinfimizlə bir yerdə
Səyahət var planda.
Axı gülür üzümüz
Bir yerə toplananda.

Çox maraqlı olacaq
Dağ-yamaca çatınca.
Yorulsaq da, dönmərik,
Ta ki günəş batınca.

O gözəl səyahəti
Biz hədiyyə sanarıq.
Bənzədib nağıllara,
Dönə-dönə anarıq.



## YAZ FƏSLİ

Xoş gəlmisən yaz fəsli,
Qur taxtını çəmənə.
Hədiyyə et günəşi,
Dostlarıma və mənə.

Çən də ver dağ-yamaca,
Görünsün hər tərəfdən.
Qəlbimizi şad etsin
Ötən günün, hər həftən...

Üzü gülsün baxanın
Tumurcuğa, çiçəyə.
Arılar da səs etsin
Qonaraq tər ləçəyə.

Quşların avazına
Söz qoşaq, bu ki yazdı.
Rəng-rəng kəpənəkləri
Nə qədər öysək, azdı.

Şən avazlı nəğmələr
Yayılsın dağa qədər.
Günlər sıra qurmasın
Boşuna hədər-hədər...

Xoş gəlmisən, yaz fəsli,
Qur taxtını çəmənə.
Hədiyyə et günəşi
Dostlarıma və mənə.

## BU SƏHƏR

Daradım öz saçımı
Bu səhər də duraraq.
Gözəl etdim, bir baxın,
Rəngli sancaq vuraraq.

Sağlam olmaqdan ötrü
Fırçaladım dişləri.
Bacararaq görürəm
Daha bütün işləri.

Səhər yeməyi üçün
Süfrə belə açmışam.
Səsləmirəm kimsəni:
– Yemək verin, acmışam.

Ütü çəkdim paltara
Anam edən qaydada.
Görəcəyəm ev işi
Mən bu gələn yayda da.

## GİZLƏNPAÇ

Gizlənpaç oynamağı
Nədən sevməzdi İnci?
Kimsə onu tapanda
Qalardımı sevinci?

Çəkilib bir tərəfə,
Küskünlüyə başlayır.
Onu gizli tutmayan,
Otu, kolu daşlayır.

O qızcığaz nə bilsin,
Əsas günah küləkdə.
Həyətdə əsən anda
Düzür önə kələk də.

Əyir uzun otları,
Elə qəfil əsir ki...
Bəlli olur gizlənən,
Burda olan nə sirr ki?

Ot da adi bitkidir,
Nə anlasın oyundan.
Görən olub bir kərə
Qürrələnsin boyundan?